# Haaqada Nizami Gəncəvinin yubileyinə həsr olunmuş tədbir keçirilib

***Niderland Krallığında fəaliyyət göstərən Benilüks Azərbaycanlıları Konqresinin (BAK) təşəbbüsü ilə Haaqa şəhərində dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin anadan olmasının 880 illiyinə həsr olunmuş ədəbi-bədii gecə keçirilib.***



Diasporla İş üzrə Dövlət Komitəsindən verilən məlumatda bildirilir ki, Azərbaycanın Niderlanddakı səfirliyində baş tutan tədbirdə diplomatik korpusumuzun əməkdaşları, Azərbaycan və digər icmaların nümayəndələri, yerli iş adamları iştirak ediblər.

Tədbirdə ölkəmizin Niderlanddakı fövqəladə və səlahiyyətli səfiri Fikrət Axundov və BAK sədri Elsevər Məmmədov çıxış ediblər. Onlar qüdrətli söz ustadının həyat və yaradıcılığından, Azərbaycan və dünya ədəbiyyatına bəxş etdiyi misilsiz irsdən danışıblar.

Gecənin ədəbi-bədii hissəsində şairin ölməz poeziyasından şeirlər səslənib, sözlərinə bəstələnmiş əsərlər ifa edilib, kamança ustası İlham Babayevin ifasında muğam parçaları təqdim olunub.

Qeyd edək ki, tədbirin bədii hissəsinin ərsəyə gəlməsində BAK sədr müavini Sima Cəfərlinin və Azərbaycan-Niderland "Odlar Yurdu" Cəmiyyətinin sədri Frəngiz Bağırovanın böyük əməyi olub.

***"Xalq qəzeti"***

Xalq qəzeti.- 2021.- 21 oktyabr.- S.6.